*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 44 (21.454)

*5 mart 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir

***Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq seminar-müşavirə keçirilib.***

"Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji ixtisasları üzrə təhsil alan tələbələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açıb. Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyası ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ötən dövrdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 216 ümumtəhsil məktəbindən 200-ə yaxını yenidən qurulub, müasir tədris avadanlıqları ilə təmin olunaraq istifadəyə verilib. Hazırda bu təhsil müəssisələrində 45 minə yaxın şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 7 minə yaxın müəllim məşğul olur. Eyni zamanda muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri də həyata keçirilən quruculuq tədbirlərindən öz payını alıb, nəticədə, tədris şəraiti yaxşılaşıb, ixtisaslı kadr hazırlığına diqqət artırılıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 iyul 2015-ci il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin vaxtında və ardıcıl icrası mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrində təhsil alanların yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri ilə əlaqələrini daim genişləndirərək pedaqoji profilli ixtisaslıların təcrübələrinin tam orta məktəblərdə keçirilməsi prosesində yaxından iştirak edir.

Naxçıvan Müəllimlər İnstitutunun tədris işləri üzrə prorektoru Akif İmanlı çıxış edərək adıçəkilən sərəncamdan irəli gələn vəzifələrin icrasından söhbət açıb, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə bu sahədə həyata keçirilən tədbirlərdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Abdulla Əsgərov ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları haqqında danışıb. Bildirilib ki, Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə konsepsiyası təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri idarə etmək üçün nəzərdə tutulub. Sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsi, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsi, qiymətləndirmə tədbirlərini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsi, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsidir. Qeyd olunub ki, konsepsiya ölkədə ümumi təhsilin müasirləşdirilməsi və yeniləşdirilməsi məqsədilə hazırlanmış milli kurikulum çərçivə sənədi ilə bilavasitə əlaqəlidir və onun tərkib hissəsini əhatə edir.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

## Muxtar respublika üzrə 120 hektar sahədə yeni yaşıllıq zolaqları və meyvə bağları salınacaq

*Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbiətin qorunmasına və zənginləşdirilməsinə, ekoloji problemlərin həllinə ciddi diqqət yetirən ölkə başçısı demişdir:* ***"Azərbaycanda elə bir sahə yoxdur ki, sürətlə inkişaf etməsin... Bütövlükdə, ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir, bununla bərabər, təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir. Məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş kontekstdə həyata keçirək".***

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən kompleks tədbirlərin mühüm istiqamətlərindən biri ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsidir. Son illərdə diyarımızda ətraf mühitin mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində mühüm işlər görülmüş, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilmiş, bəzək kolları, həmişəyaşıl, həmçinin meşə ağaclarının əkilməsi, müntəzəm olaraq onlara qulluq edilməsi diqqət mərkəzində saxlanılmış, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər prioritet vəzifəyə çevrilmişdir.

Bu gün muxtar respublikamızda 2016-cı ilin yaz iməciliklərinə start verilib. İməciliklərdə görüləcək işlər barədə ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etdik. Nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsinin müdiri Mayis Əliyev bildirdi ki, son illərdə muxtar respublikamızda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi muxtar respublikanın hər bir guşəsində keçirilən iməciliklər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Son illər iməciliklər yolu ilə xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmışdır. Təkcə ötən ilin rəqəmlərinə diqqət yetirək. 2015-ci ildə 216,8 hektar sahədə yaşıllıq zolağı və meyvə bağı salınmış, 446 min 320 ədəd ting əkilmiş, 324,2 hektar sahədə bərpa işləri aparılmışdır. Cari ildə də bu işlər davam etdiriləcək. Muxtar respublika üzrə 120 hektar sahədə yeni yaşıllıq zolağı və meyvə bağı salınacaq.

Ötən il ilk dəfə olaraq muxtar respublikada 50 hektar sahədə püstə bağının əkildiyini diqqətə çatdıran Mayis Əliyev bildirdi ki, bəhs olunan dövrdə daha 50 hektar püstə bağı salınacaq.

Görüləcək işlər sırasında Naxçıvançay vadisində 2, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafında 2,5, xüsusi mühafizə olunan təbiət ərazilərinin əhatə etdiyi orta dağlıq və dağlıq ərazilərdə isə 7 hektar sahədə meyvə bağlarının, Naxçıvan-Çalxanqala yolunun kənarlarında 6 hektar yaşıllıq zolağının salınması da var.

Nazirliyin nümayəndəsi onu da bildirdi ki, ötən illərdə olduğu kimi, cari ildə də bərpa işləri diqqət mərkəzində saxlanılacaq, 91,1 hektar sahədə bərpa işləri aparılacaq. Bunun da 39,6 hektarı nazirliyin payına düşür. Nazirlik tərəfindən 50,5 hektar sahədə toxumla bərpa, 2,7 hektar ərazidə toxmacarlıq və qələmköklandırma işləri görüləcək.

✍ **Muxtar MƏMMƏDOV**

## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə keyfiyyətli xidmət göstərilir

***Muxtar respublikanın hava nəqliyyatında uçuşların təhlükəsizliyi təmin olunur, sərnişin və yükdaşımalarının səviyyəsi ilbəil yüksəldilir. Son illər aerovağzal kompleksinin yenidən qurulması, infrastrukturun yenilənməsi xidmətin müasir tələblər səviyyəsində qurulmasına imkan verir. 2016-cı ilin fevral ayında da Naxçıvan Beynəlxalq Hava Limanının fasiləsiz fəaliyyəti təmin edilmişdir.***

Uçuşların təhlükəsizliyinin təmin olunması məqsədilə beynəlxalq hava limanında bütün zəruri tədbirlər yerinə yetirilmiş, hava gəmilərinin və texniki avadanlıqların sazlığı müntəzəm olaraq diqqət mərkəzində saxlanılmış, aerodromda, eləcə də uçuş-enmə zolağının ətrafındakı nəzarət qüllələrində, bokslarda, aerovağzal, VİP və digər inzibati binalarda təmir işləri aparılmışdır. İstifadə olunan bütün növ maşın və texnikalara, yanğınsöndürən avtomobillərə texniki xidmət göstərilmiş, xidməti ərazilərdə profilaktik yoxlamalar aparılmış, yararsız yanğınsöndürmə balonları yeniləri ilə əvəz olunmuşdur. Texnoloji avadanlıqların istismarı və təmiri sahəsi üzrə işlər qrafikə uyğun davam etmiş, cihazların davamlı və normal işinin təşkili üçün qabaqlayıcı tədbirlər görülmüşdür. Bu dövrdə istismara yararsız X-Ray avadanlığı yenisi ilə əvəz olunmuş, hava gəmilərinin yedəklənməsi üçün qurğu alınmışdır.

İşçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə də mütəmadi tədbirlər görülür. Ötən ay Aviasiya təhlükəsizlik xidməti əməkdaşları üçün Milli Aviasiya Akademiyasından dəvət olunmuş müəllim tərəfindən "Təhlükəsizlik yüklərinin hava nəqliyyatı ilə daşınması" ilə bağlı kurs keçirilmişdir. Həmçinin teleskopik trapın idarə olunmasında iştirakı nəzərdə tutulan 8 nəfər Milli Aviasiya Akademiyasında keçirilən nəzəri-praktik kursa cəlb olunmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, fevral ayında da hava limanında əhaliyə keyfiyyətli xidmət göstərilmiş, yerli hava xətti ilə 13 min 645 sərnişin, 227 min 429 kiloqram baqaj, 49 min 813 kiloqram yük və 4 min 571 kiloqram poçt, beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva istiqamətində 116 sərnişin, 2 min 338 kiloqram baqaj, Naxçıvan-İstanbul istiqamətində isə 434 sərnişin və 4 min 678 kiloqram baqaj daşınmışdır.

***Naxçıvan Beynəlxalq Hava Limanı***

## Melioratorlar yaz-tarla işlərinə hazırlığı diqqətdə saxlayırlar

***Muxtar respublikada su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması istiqamətində görülən işlərin əhatə dairəsi genişləndirilir.***

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları tərəfindən fevral ayında 3,5 kilometr məsafədə yeni suvarma xətti çəkilmiş, 2,36 kilometr təzyiqli boru xətti, 450 metr suvarma, 1,3 kilometr açıq və 170 metr qapalı drenaj xətləri təmir edilmiş, 35 kilometr kanal və 59 kilometr ara arxları lildən təmizlənmişdir. Həmçinin 16 nasos stansiyasında təmir işləri başa çatdırılmış, bütün nasos stansiyaları suvarma mövsümünə hazır vəziyyətə gətirilmişdir. Ötən ay Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektarlıq qapalı suvarma şəbəkəsinin tikintisi işləri də davam etdirilmiş, 1464 metr məsafədə boru xətti şəbəkəyə qoşulmuşdur. Şərur rayonunun Ələkli kəndinə birbaşa suvarma suyunun verilməsi üçün isə Arpaçay sol sahil kanalından 640 metr boru xətti çəkilmişdir. Bu dövrdə yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsi məqsədilə 3,2 kilometr istiqamətləndirici bənd salınmış, Araz çayında 1,4 kilometr sahilbərkitmə işi görülmüşdür.

Subartezian quyularının və kəhrizlərin istismara yararlılığı daim diqqət mərkəzində saxlanılır. Ötən ay Şərur rayonunun Püsyan kəndində 1 subartezian quyusu bərpa olunmuş, Yengicə kəndində yeni subartezian quyusu qazılmışdır. Ümumiyyətlə, bəhs olunan dövrdə 45 subartezian quyusunda və 5 kəhrizdə təmir işləri davam etdirilmişdir.

Muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı və keyfiyyətli içməli su təminatı yaradılır, yeni kanalizasiya sistemləri qurulur. Naxçıvan şəhərinin Tumbul kəndində 3945 metr içməli su və 2558 metr kanalizasiya, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində 4457 metr, Babək rayonunun Şıxmahmud kəndində isə 3455 metr kanalizasiya xətti çəkilmişdir. Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi aparılır. Hazırda Culfa şəhərində mənzillərdə sayğacların qurulması işləri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.*

İlham Əliyev adına Olimpiya-İdman Kompleksi

## 5 mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafı yeni mərhələyə yüksəlmişdir

Ölkəmizdə bədən tərbiyəsi və idmanın tarixi çox qədimlərə dayanır. Bu sahə xalqımızın həyat tərzi, yaşayışı və mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan folklorunda, xüsusilə "Kitabi-Dədə Qorqud" dastanında igidlərin oxatma, atçapma, güləş və digər xalq oyunlarında hünər göstərmələri əks olunmuşdur. Digər bir tərəfdən əcdadlarımız Qobustanda və Gəmiqayada qaya üzərində müxtəlif fiziki hərəkətlər təsvir etmişdir. Bütün bunlar Azərbaycanda idmanın qədim tarixindən xəbər verir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan verdi. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Ötən il iyunun 12-dən 28-dək Bakıda keçirilən birinci Avropa Oyunları da həm təşkilatçılıq, həm də idmançılarımızın uğurlu çıxışları ilə Azərbaycanın adını dünya idman tarixinə həkk etmişdir.

Naxçıvan Muxtar Respublikasında idmanın maddi-texniki bazası xeyli gücləndirilmişdir. Son illər muxtar respublikada 2 olimpiya-idman kompleksi, 2 üzgüçülük mərkəzi, 1 şahmat mərkəzi, 6 uşaq-gənclər şahmat məktəbi, 9 uşaq-gənclər idman məktəbi, Atıcılıq Mərkəzi, Atıcılıq Əyləncə Mərkəzi, stadionlar, peyntbol meydançası, yeni olimpiya ağırlıqqaldırma qurğuları, ümumtəhsil məktəblərində müasir idman zalları və digər idman avadanlıqları quraşdırılmışdır. Ötən dövrdə muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanmış, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal İdman Növləri və Atıcılıq federasiyaları yaradılmışdır. Bundan başqa, 2013-cü ildə "Araz-Naxçıvan" Peşəkar Futbol Komandasının fəaliyyəti bərpa olunmuş və ötən il Əlincə Stolüstü Tennis Klubu fəaliyyətə başlamışdır.

Naxçıvan şəhərində Üzgüçülük Mərkəzi

Bu gün muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bu gün muxtar respublikamızda, ümumilikdə, 40 min nəfərə yaxın yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır.

2015-ci ildə də idmanın kütləviliyinə nail olunması, yeniyetmə və gənclərin idmana cəlb olunması istiqamətində bir sıra işlər görülmüş, məktəblilərin spartakiadasının keçirilməsi, zonalar üzrə müxtəlif idman yarışlarının təşkili davam etdirilmişdir. Muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilmiş, idmançılarımız dünya çempionatlarında 11, Avropa çempionatlarında 2, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində 36, birinci Avropa Oyunlarında isə 2 medal olmaqla, cəmi 67 medal qazanmışlar. Həmçinin sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin idman bölmələrinə cəlbi, mövcud idman obyektlərindən ödənişsiz istifadəsi təmin olunmuş, məktəblilərin fiziki möhkəmliyinin artırılması, ildə iki dəfə olmaqla, "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü və "Şahin", "Sərhəd" hərbi idman oyunları keçirilmişdir. İdman yarışlarında fərqlənmiş idmançılar haqqında məlumat bankı yaradılmış, onların uğurları kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Şərur Olimpiya-İdman Kompleksi

Muxtar respublikada qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülür. Ötən il Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Xatun" Bədii Gimnastika İdman Klubu fəaliyyətə başlamışdır. Hazırda muxtar respublikada 100-dən artıq qız bədii gimnastika ilə məşğul olur. Həmçinin cari ilin əvvəlində nazirliyin tərkibində stolüstü tennis bölməsi də açılmış, bölməyə müraciət edənlərin əksəriyyətini gənc qızlar təşkil etmişdir.

İstifadəyə verilən müasir idman infrastrukturu Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açmışdır. Son illər bu imkanlardan lazımınca istifadə olunur, dünyanın müxtəlif ölkələrindən gələn yüzlərlə idmançı muxtar respublikada keçirilən yarışlarda iştirak edir. Naxçıvan Muxtar Respublikasında 2003-cü ildə 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, 2011-ci ildə karate üzrə "Naxçıvan Open" beynəlxalq turniri, 2011-ci ildən etibarən hər il mütəmadi olaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə "Naxçıvan Kuboku" uğrunda beynəlxalq turnirlər, beynəlxalq şahmat festivalları, 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı, 2012-ci ildə MMA Qran-Pri üzrə Şərqi Avropa çempionatı, 2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş qol-bol paralimpiya idman növü üzrə beynəlxalq turnir, 2014-cü ildə veteranlar arasında ağırlıqqaldırma üzrə "Dünya Kuboku" uğrunda yarış, 2015-ci ildə kikboksinq üzrə "Azərbaycan Kəməri" uğrunda yarış və digər mötəbər idman tədbirləri keçirilmiş, idmançılarımız muxtar respublikanı və ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələr əldə etmişlər.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr də məhz bu məqsədə xidmət edir. Bu il yanvarın 15-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə müşavirə keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə konkret tapşırıqlar verərək demişdir: ***"Bu gün ona nail olmalıyıq ki, muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı üçün imkanlardan bütün vətəndaşlar, o cümlədən gənclər səmərəli istifadə etsinlər. Ona görə də Gənclər və İdman Nazirliyi və idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi istiqamətində fəaliyyətlərini gücləndirməli, idmanın kütləviliyi təmin olunmalı, idman obyektlərindən və qurğularından istifadə əhali üçün əlçatan olmalıdır".***

Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbi

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi qarşıya qoyulan bu vəzifələrin icrasını diqqət mərkəzində saxlayacaq, muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı sahəsində görülən işlər bundan sonra da davam etdiriləcək, istedadlı idmançılar nəsli yetişdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Beynəlxalq Qadınlar Günü qeyd olunub

*Naxçıvan Dövlət Universitetində 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd olunub. Universitetin İncəsənət fakültəsinin tələbə və müəllimlərinin əl işlərindən ibarət sərgidə qadınların cəmiyyətdəki roluna həsr olunan əsərlər nümayiş etdirilib.*

Ali təhsil ocağının tədbirlər zalında davam edən tədbiri rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq universitetin qadın əməkdaşlarını təbrik edib, Azərbaycan qadınlarının tarixi xidmətlərindən danışıb. Cəmiyyətimizdə ana, qadın adının həmişə uca tutulduğunu bildirən Saleh Məhərrəmov ölkəmizdə uğurla həyata keçirilən dövlət qadın siyasətindən və onun real nəticələrindən danışıb. Vurğulanıb ki, Azərbaycan qadını zərifliyin, ülviliyin və gözəlliyin rəmzi olan adının ucalığını həmişə layiqincə qoruyub saxlayıb. Tarix boyu o, özünün müdrikliyi, işgüzarlığı və saflığı ilə keçmişimizə parlaq səhifələr yazıb. Fərəhləndirici haldır ki, gənc xanım və qızlarımız bu nailiyyətlərin layiqli davamçıları kimi nəsillərin varisliyini təmin edirlər. XX əsrdən etibarən Azərbaycan cəmiyyətində qadının ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrdə rolu artmağa başlayıb və bütün bunlar ölkədə demokratik dövlət quruculuğunun, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasətin əməli nəticəsidir. Bu siyasət Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir.

İqtisad fakültəsinin akademik məsləhətçisi, doktorant Ruhəngiz Əliyeva "Azərbaycan qadını bu gün" mövzusundakı məruzəsində bildirib ki, qadın adı, ana adı tarix boyu vətənimizdə həmişə uca tutulub, Azərbaycan qadını bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərib. Azərbaycanda qadına daim böyük ehtiram və hörmət göstərilib. Ulu öndər Heydər Əliyev qadınların xidmətlərini – gənc nəslin sağlam, vətənpərvərlik ruhunda böyüməsində sərf etdikləri əməyi hər zaman yüksək qiymətləndirərək onlara daim böyük diqqət və qayğı göstərirdi. Müasir dövrümüzdə Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan bir varlıqdır. Bu gün Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva bütün dünyaya sübut edir ki, Azərbaycan qadını həm gözəl ana, həm də fəal ictimai xadim ola bilər.

Bayram tədbiri universitetin İncəsənət fakültəsinin hazırladığı ədəbi-bədii proqramla davam etdirilib.

**Mina QASIMOVA**

*Axtarışlar, tapıntılar*

# Fərəməz Mahmudbəyov haqqında bəzi qeydlər

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın dövlətçilik tarixində muxtariyyət statusu olduqca mühüm və aktual məsələdir. Naxçıvanlılar 1918-1924-cü illərdə də öz qəhrəmanlıqları ilə sübut etdilər ki, onlar Azərbaycançılıq ideologiyasına sadiqdirlər.***

Torpaqlarımıza göz dikən erməni daşnaklarına və onların havadarlarına qarşı mərdliklə döyüşən naxçıvanlılar Mehridən Sürməliyə (indiki İqdır) qədər ərazini yağılardan qoruyur və hər qarış torpaq uğrunda canlarını qurban verməkdən belə, çəkinmirdilər. Tarixi sənədlərdən və canlı şahidlərin yazdıqlarından məlum olur ki, erməni daşnaklarının çoxlu qırğınlar törətdiyi yerlərdən biri də İrəvan quberniyasının Vedibasar mahalı olmuşdur. Əvvəlcə tarixi sənədlərdən bəzi faktları xatırlayaq: *"Naxçıvan diyarı üçün böyük əhəmiyyət kəsb edən Araz-Türk Demokratik Respublikasının yaranması oldu. Respublikanın paytaxtı Naxçıvan şəhəri oldu. Onun ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və sair bölgələr daxil idi".*

1918-ci ilin yazından başlayaraq erməni daşnakları Şərur-Dərələyəz qəzasına bitişik olan Vedibasar rayonuna aramsız hücumlara başlamışlar.

İlk gündən başlayaraq vedililər erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşlar. Həmin illərin canlı şahidi olan unudulmaz tarixçi-alim Əli Əliyev yazırdı: "1918-ci ilin iyul ayında Aydoğmaz kəndi ilə Dəvəli və Şəfəqli kəndləri arasında 17 nəfər mauzerçi daşnak öldürülür. Öldürülənlərin qanı Vedi əhalisindən tələb olunur. Daşnaklar vedililərə ultimatum verir ki, hər öldürülən mauzerçiyə 17 min manat bac və hər bir öldürülənin əvəzində bir nəfər adam verilməlidir. Vedililər daşnak ultimatumunu rədd edirlər. Bundan hiddətlənən daşnak hakimlərindən Dro Arampaşa, Dəli Kazonun başçılığı altında Bek Primovun polku Vediyə basqın edir. Qəflətən basqını görən Abbasqulu bəy yerli əhaliyə müraciət edərək belə deyir: "Hərgah biz qabağa çıxmasaq, bütün kənd məhv olacaq". Əhalinin hamısı ayağa qalxır. Vedi ətrafında bütün gün döyüş gedir. Dəyanətli komandir kimi Abbasqulu bəy Şadlinski özünün cəsarəti ilə kəndin döyüşçülərini ruhlandırır. Gecə Şadlinski qəti döyüşə girir. Təzyiqə davam gətirə bilməyən daşnak mauzerçiləri qaçır, döyüş meydanında bir neçə top, 8 pulemyot, çoxlu miqdarda silah, patron və sair hərbi sursat qalır".

Qeyd edək ki, bu rəsmi məlumatı "Kommunist" qəzeti də (rusca) 16 avqust 1970-ci il tarixli nömrəsində təsdiqləmişdi.

Tarixçi-alim daha sonra bu döyüşdə bütün vedililərin hünərlərini qeyd etməklə bərabər, xüsusilə fərqlənən vətənpərvərlərin adlarını da çəkir: "Bu döyüşdə çoxlu adam qırılır. Dəstə başçılarından bir neçəsi öldürülür. Qeyd etmək lazımdır ki, bu vuruşlarla əlaqədar Vedi ətrafındakı kəndlərin – Çəmənkənd, Cığın dərəsi, Vedibasarın bütün əhalisi buraya toplaşmışdı. Abbasqulu bəy özünü rəşadətli sərkərdə kimi göstərirdi. Onun ətrafında Fərəməz Mahmudbəyov, Əli Eyvazov, İbrahim Fərzəliyev, Ələsgər Kərimov, Yetim Əlioğlu, Xəlil və sair vətənpərvərlər toplaşmışdı. Onların hər biri xalq cəbhəsinin əsl cəngaveri idi".

İrəvanda ağalıq edən ingilislər daşnakların məğlubiyyətindən narahat olurlar. Onların köməkliyi ilə daşnakların Vediyə ikinci hücumu başlayır. Vedi hər tərəfdən mühasirəyə alınır. İngilislər Naxçıvanda Araz-Türk Respublikasının ləğvinə nail olur ki, naxçıvanlılar Vedinin müdafiəsinə kömək edə bilməsinlər. Və bundan sonra Vedibasar mahalının sağ qalan əhalisi Şərurda və Naxçıvanda məskunlaşır. Amma yenə də vətənpərvərlər silahı yerə qoymur və Naxçıvanın, Şərur-Dərələyəzin, Culfanın, Ordubadın müdafiəsində yaxından iştirak edirlər.

28 iyul 1920-ci ildə Naxçıvanda bolşeviklərin iştirakı ilə sovet hökuməti qurulur. Rəsmi olaraq Naxçıvan İnqilab Komitəsi yaradılır. Onun tərkibi aşağıdakı heyətdə idi: M.Bektaşov, Q.Səlimov, A.Kazımov, F.Mahmudbəyov və Q.Babayev.

Qeyd edək ki, bu illərdə siyasi proseslər tez-tez dəyişirdi. Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılmışdı.

1919-1925-ci illərdə Naxçıvanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan insanlardan biri də Fərəməz Mahmudbəyovdur. Lakin onun haqqında ensiklopedik nəşrlərdə məlumat yoxdur. Öz ömrünün gənclik illərini Naxçıvanın müdafiəsinə və inkişafına həsr edən Fərəməz Mahmudbəyov haqqında axtarışlar apardıq. Tapdığımız rəsmi məlumatları və onun fotoşəklini qəzetimizdə dərc etdirməyi özümüzə mənəvi borc bildik.

Fərəməz Əskərbəy oğlu Mahmudbəyov, təxminən, 1900-cü ildə Vedidə doğulmuşdur. Arxiv sənədlərində onun ata tərəfdən babasının adı Baxşəli bəy kimi qeyd edilmişdir.

Fərəməz Mahmudbəyov 1906-1912-ci illərdə Vedi ikisinifli məktəbini bitirmişdir. Sonralar İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. O, 1917-ci il martın 22-də İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Amma yaşanan siyasi hadisələr onun müntəzəm olaraq müəllimlik etməsinə imkan verməmişdir. 1919-cu ildən etibarən Naxçıvanın, Şərurun və Ordubadın erməni daşnaklarından qorunmasında yaxından iştirak etmişdir.

1919-cu ildə Mir Hidayət Seyidovun vəfatından sonra Ordubadda müdafiə komitəsinə rəhbərlik etmiş və şəhərin erməni daşnaklarından müdafiə edilməsi uğrunda gedən döyüşlərin fəal iştirakçısı olmuşdur.

Naxçıvanda sovet hökuməti qurulandan sonra bir müddət Naxçıvan İnqilab Komitəsinin üzvü olmuş, sonralar isə Şərur və Ordubad rayonlarının icraiyyə komitəsinin sədri vəzifələrində çalışmışdır. Naxçıvan diyarının təhqiqi üzrə xüsusi komissiyanın iclasının 6 nömrəli protokoluna (4 aprel 1925-ci il, Naxçıvan stansiyası) əsasən, məlum olur ki, Fərəməz Mahmudbəyov həmin ildə Naxçıvan diyarının xalq torpaq komissarı vəzifəsində fəaliyyət göstərirmiş.

Birbaşa M.C.Bağırovun və Əliheydər Qarayevin rəhbərliyi ilə keçirilən xüsusi iclasda qeyd olunur ki, Vedibasarın qubernatoru işləyən Fərəməz Mahmudbəyov antisovet təbliğatında təqsirkar bilinərək tutduğu vəzifədən azad edilmiş, həbs olunaraq Bakıya aparılmışdır.

Tarixçi-alim Əli Əliyevin yazdığına görə, 1937-ci ildə Nargin adasında digər silahdaşları ilə birlikdə güllələnmişdir.

Fərəməz Mahmudbəyovun İrəvan zadəganlarından olan Kazımbəyovun qızı Şövkət xanımla nikahından Şamil və Məryəm adlı övladları olmuşdur. Oğlu Şamil (5.12.1924, Naxçıvan – 20.05.1997, Bakı) Azərbaycanın görkəmli kinorejissoru idi. Qızı Məryəm 2 yanvar 1921-ci il tarixdə Naxçıvanda doğulmuşdur. Azərbaycanın görkəmli mikrobioloq-immunoloq alimi olmuşdur. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın müstəqilliyi və azadlığı uğrunda mübarizlərdən biri – Fərəməz Mahmudbəyovun həyat və fəaliyyətinin öyrənilməsi mənəvi borcumuzdur.

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

# Naxçıvan böyük şəxsiyyətlər yetişdirən diyardır

***Xəbər verdiyimiz kimi, martın 3-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində görkəmli sərkərdə, tam süvari qoşunları generalı Hüseyn xan Naxçıvanski haqqında çəkilmiş tammetrajlı sənədli filmin təqdimatı olub. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Salnamə" Sənədli Filmlər Studiyası və "Lennauçfilm" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanan "Hüseyn xan Naxçıvanski. Qayıdış" filminin təqdimat mərasimindən sonra "Lennauçfilm" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anton Smirnov film haqqında fikirlərini, eləcə də Naxçıvan barədə təəssüratlarını bizimlə bölüşdü.***

*– Anton Vladimiroviç, sizi yenidən Naxçıvanda xoş gördük.*

– Çox sağ olun.

*– Günün sonuna doğru görüşməyimizin səbəbi o oldu ki, bizimlə bölüşmək üçün təəssüratlarınız geniş olsun.*

– Əlbəttə ki, təəssüratlar çoxdur. Əvvəlcə film haqqında bir neçə söz demək istərdim. Bildiyiniz kimi, Naxçıvanın görkəmli şəxsiyyətlərindən olan Hüseyn xan Naxçıvanski haqqında çəkilmiş film Azərbaycan və rus xalqları arasındakı mədəni və tarixi bağların keçmişi və bu günü baxımından çox əhəmiyyətlidir. Hüseyn xan Naxçıvanski kimi tarixi bir şəxsiyyət öz bacarığı, igidliyi, dəyanəti ilə həm də rus xalqının dostudur. Bu böyük şəxsiyyət Çar II Nikolaya olan sədaqəti, özünün yüksək hərbçilik məharəti ilə eyni zamanda rus hərb tarixinə adını qızıl hərflərlə yazdırmış generallardandır. Qəhrəmanımız öz şücaətinə görə o zaman Rusiyanın ən yüksək orden və medallarına layiq görülmüşdür. Bu cür hərbçilər, bəlkə də, yüz ildə bir dəfə yetişir. Buna görə də belə bir insan haqqında film çəkmək, bunu tamaşaçılara çatdırmaq bizim üçün qürurvericidir. Hüseyn xan Naxçıvanskinin keçdiyi ömür yolu, xarakteri bu gün uşaqlarımız, gənclərimiz üçün əsl örnəkdir. Fərqi yoxdur, kimisi müəllim, kimisi həkim və ya mühəndis ola bilər. Əsas olan odur ki, əqidəli, öz sözünün üstündə duran, qorxmaz, sədaqətli olasan. Çünki bu kimi xarakterləri özündə formalaşdıran insan vətəninə, xalqına lazımlı ola bilər, ona istənilən sahədə təmənnasız xidmət edə bilər. Hesab edirəm ki, bu baxımdan filmin tərbiyəvi əhəmiyyəti böyükdür.

*– Bilirik ki, Naxçıvanda bundan əvvəl də olmusunuz. Görkəmli sərkərdənin vətəni sizdə hansı təəssüratları yaradıb?*

– Doğrudur, bundan əvvəl də film çəkilişləri ilə bağlı Naxçıvanda olmuşam. Buranı gəzdikcə fikirləşirdim ki, Naxçıvan kiçik yer olsa da, böyük şəxsiyyətlər yetişdirib və o şəxsiyyətlərin xidməti təkcə bura və ya Azərbaycanla məhdudlaşmayıb. Həqiqətən, buranın ecazkar təbiəti var. Hava çox təmizdir. Mən özümü burada çox sərbəst və sakit hiss edirəm. Məsələn, bu gün səhər gəlmişik, yorğun olsam da, bu, mənə o qədər də təsir etmir. Sanki burada daha da yüngülləşmişəm. Biz Naxçıvanda bir neçə yerdə olmuşuq. Bir zamanlar Naxçıvanı idarə edən xanların yaşadığı sarayda olduq. Burada gördüyümüz hər bir eksponat insanı keçmişə aparır. Naxçıvanqala ilə də tanışlıq bizdə xoş təəssürat yaratdı. Qalanın möhtəşəm divarları var. Bu tikili keçmişdə Naxçıvanın yaxşı qorunduğundan xəbər verir. Dedilər ki, qala divarları bərpa olunub. Duzdağ sanatoriyasında olduq, çox xoşuma gəldi. Eşitdiyimə görə, ora xarici ölkələrdən çoxlu turistlər gəlir. Naxçıvan eyni zamanda sakit bir şəhərdir. Böyük meqapolislərdən fərqli olaraq burada həyat daha sakit davam edir. Hər kəs öz işi ilə məşğuldur. Naxçıvan Azərbaycanın ən gözəl və qədim tarixə malik şəhərləri sırasında öndə gəlir.

*– Müsahibə üçün sağ olun.*

**Səbuhi HƏSƏNOV**

# "Nabat" filmi Şərurda nümayiş etdirilib

Şərur şəhərindəki "Bahar" kinoteatrında Naxçıvan Dövlət Film Fondu Azərbaycan kinematoqrafçılarının çəkdiyi "Nabat" filmini nümayiş etdirib.

Filmin nümayişindən əvvəl Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov bildirib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin layihəsi ilə hər həftənin cümə günü "Azərbaycan kinosu günü" kimi ölkəmizdə istehsal olunmuş filmlər göstərilir. Bu gün göstərilən "Nabat" filmi son illərdə çəkilib və dünyanın onlarla ölkəsində festivallarda göstərilib. Qeyd olunub ki, "Nabat" filminin çəkilişləri İsmayıllı rayonunda aparılıb. Film xalqımızın ən ağrılı problemi olan Qarabağ mövzusundadır. Filmin yaradıcıları Elçin Musaoğlu, Əbdülrəhim Bəşərat, Elxan Nəbiyev və başqaları maraqlı ekran əsəri yaratmağa nail olublar.

Sonra "Nabat" filmi nümayiş etdirilib.

**Əli RZAYEV**

# Elmi-praktik seminar

Hər il martın 24-də dünya ictimaiyyəti Beynəlxalq Vərəmlə Mübarizə Gününü qeyd edir. Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 1993-cü ildən başlayaraq keçirilən Beynəlxalq Vərəmlə Mübarizə Gününün məqsədi qlobal vərəm epidemiyası haqqında məlumatlılığı artırmaq və bu xəstəliyin aradan qaldırılması istiqamətində səyləri gücləndirməkdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, mart ayında Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr edilmiş tədbirlərə start verilib. Martın 4-də Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri Şahbuz Rayon Mərkəzi Xəstəxanasında elmi-praktik seminar keçirib.

Xəstəxananın baş həkimi İlvin Rzayev tədbiri giriş sözü ilə açaraq mövzunun aktuallığı barədə danışıb. Dispanserin həkimi, təşkilati-metodik kabinənin müdiri Məmmədəli Ələkbərov "Vərəmin aşkarlanma strategiyası", dispanserin həkim-pediatrı Elnurə Rzayeva "Uşaq və yeniyetmələrdə vərəm intoksikasiyası", profilaktik kabinənin müdiri Əbülfəz Məmmədov "Vərəm xəstəliyinin profilaktikası", dispanserin həkim-bakterioloqu Səbuhi Məmmədov "Vərəmin rezistent formaları, onun aşkarlanması", Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkimi Səkinə Qəhrəmanova "Vərəm xəstəliyi və hamiləlik" mövzularında çıxış ediblər.

Seminarda bildirilib ki, belə bir günün qeyd edilməsi üçün martın 24-ü təsadüfən seçilməyib. 1882-ci ildə məhz həmin gün alman mikrobioloqu Robert Kox vərəmi törədən mikrobları kəşf etdiyini elan edib. Statistikaya görə, vərəm hər il 1,6 milyon insanın həyatına son qoyur. Təəssüf ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlikdir. Lakin bu mübarizəni bir an belə dayandırmadan müəyyən sabitliyə nail olmaq mümkündür. Bunun üçün əhalinin vərəm xəstəliyi ilə bağlı məlumatlılıq səviyyəsini artırmaq, insanlar arasında maarifləndirmə işi aparmaq vacibdir.

Sonra dinləyiciləri maraqlandıran suallar cavablandırılıb və onlara vərəmin profilaktikası barədə bukletlər paylanılıb.

# Tələbələr kütləvi tibbi müayinədən keçirilib

Ali və orta ixtisas təhsili müəssisələrinin tələbə heyətinin kütləvi tibbi müayinəsi davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tədbirlər planı hazırlamış, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası LOR üzrə həkiminin rəhbərliyi ilə müxtəlif səhiyyə müəssisələrinin ftiziatr, rentgenoloq, terapevt, nevropatoloq, stomatoloq, dermatoveneroloq, oftalmoloqlarından ibarət həkim komissiyası yaradılmışdır.

Naxçıvan Dövlət Universitetində noyabr ayından başlanmış profilaktik tibbi yoxlamalar martın 2-də başa çatmışdır. Keçirilən son tədbirdə 580 tələbə tibbi müayinələrlə əhatə olunmuşdur. 70 miopiya, 7 diş daşı, 23 burun-qulaq-boğaz, 10 terapevt, 12 dəri-zöhrəvi xəstəliyi aşkar edilmiş, onların daşıyıcıları olan tələbələrin müalicəsi üçün tibbi göstəriş verilmişdir. 250 tələbə Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində flüoroqrafik müayinədən keçmiş, vərəm xəstəliyi aşkar edilməmişdir. Bütövlükdə aksiyanın əvvəlindən 2220 tələbə tibbi müayinələrə cəlb olunmuş, ciddi xəstəlik halları müşahidə edilməmişdir. Hazırda tələbə heyətinin kütləvi profilaktik tibbi müayinəsinin ilkin nəticələri barədə nazirlikdə təhlillər aparılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Mart ayında kənd təsərrüfatı sahəsində hansı işlər görülməlidir?

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi bitkiçilik və heyvandarlıq sahələrində mövsümlə bağlı aşağıdakı işlərin görülməsini tövsiyə edir.*

### *Meyvə və üzüm bağlarında*

Aran bölgələrdə tumurcuqların şişməsi müşahidə edilməyən ağaclarda budama işləri davam etdirilir. Dağlıq və dağətəyi bölgələrdə budama işlərinə başlanması və temperatur müsbət 5 dərəcədən yuxarı olduqda ağaclarda xəstəlik və zərərvericilərə qarşı mübarizə məqsədilə 1 faizli DNOK məhlulu ilə çiləmə aparılır. Hər hektara cavan meyvə bağlarına 20 ton üzvi, 300-350 kiloqram fosfor və 100-120 kiloqram kalium gübrəsi, barverən bağlara hər il 20 ton, 2-3 ildən bir verilərsə 30-40 ton üzvi, 550-600 kiloqram fosfor və 200-250 kiloqram kalium gübrəsi verilir. Gübrələr ağacların gövdə ətrafına səpilərək bellənib torpağa qarışdırılır.

Meyvə bağlarında tezyetişən sortlarda vegetasiya inkişafı müşahidə edilərsə hava şəraitindən asılı olaraq bar orqanlarının şaxtadan mühafizə edilməsi məqsədilə cərgə aralarında şaşkalar yandırılır, çətin yanıb alışan bitki qalıqları, küləş, üzvi gübrə və ya yaş odunla tüstüləndirmə aparılır.

Meyvə bağlarında az məhsuldar sortlarda sortdəyişmə aparmaq məqsədilə calaqlar vurulur. Məhsuldar sortlardan meyvə tingləri tədarük edilir və əkilir.

Aran bölgələrdə üzüm tənəklərinin üstü açılır və quru budama aparılır.

### *Əkinçilikdə*

Yaz əkinləri üçün şum qaldırılır, yazlıq arpa və buğda əkinləri aparılır. Tərəvəz və dənli-paxlalı bitkilərin toxumları əkindən əvvəl dərmanlanır və səpilir.

Kartof əkinləri üçün torpaq hazırlanır, toxumluq kartof yumruları dərmanlanır və əkin aparılır.

Tərəvəz toxumları parniklərə səpilir, toxum səpilmiş şitilliklərə qulluq göstərilir və sair.

Payızlıq taxıl əkinlərində müşahidə edilən siçanabənzər gəmiricilərə qarşı kimyəvi mübarizə aparılır. Payızlıq taxıl əkinlərinə azotlu yemləmə gübrəsi verilir.

Suvarma arxları çıxarılır və lildən təmizlənir.

Torpaq suyu içməyən payızlıq taxıl əkinlərində və eləcə də yazda əkilmiş taxıl sahələrində suvarma aparılır.

### *Heyvandarlıqda*

İribuynuzlu fermalarda doğumun çoxalması və süd istehsalının artması ilə əlaqədar olaraq sağmal inəklərin yem paylarında sulu-şirəli və qüvvəli yemlərin miqdarı artırılmalı, yemlərə A, D, E vitaminləri əlavə edilməli, süd istehsalını artırmaq üçün ehtiyat mənbələrindən istifadə olunmalıdır.

Yetişdirilən düyələrin yemlənməsi ilə yanaşı, mal-qaranın gündəlik gəzintiyə çıxarılmasını təşkil etmək və buzovların bəslənilməsinə diqqəti artırmaq lazımdır.

Bu ayda inək və düyələrin doğuma hazırlanmasına ciddi fikir verilməlidir.

Qoyunçuluq təsərrüfatında mövsümi çoban və dölçülər ayrılmalıdır. Gündəlik təsərrüfatda növbətçilər təyin edilməlidir. Növbədə olan heyvandarlar yeni doğulan quzuları və almaz qoyunların balalarını ağız südü ilə təmin etməklə yanaşı, balaları zəif olan qoyunlar sağılmamalıdır.

### *Quşçuluqda*

Quşçuluq təsərrüfatlarının mart ayında cücə götürüb yetişdirmələri çox faydalıdır, çünki mart ayında götürülən cücələrin salamat qalma faizi daha çox olur.

Eyni zamanda toyuqların məhsuldarlığını 70-80 faizə çatdırmaq üçün onlara keyfiyyətli yemlərlə yanaşı, süd və süd məhsulları, ət və balıq unu, hər cür yem qalıqları, müxtəlif antibiotiklər və mikroelementlər verilməlidir. Sağlam və gümrah fərdlər seçilərək ana sürünün bərpası üçün ayrılmalıdır.

### *Arıçılıqda*

Günəşli, sakit və havanın temperaturu müsbət 12 dərəcədən artıq olan günlərdə arıxanada arı ailələrinə ilk baxış keçirilməlidir. Hər bir ailə açılmalı, pətəyin quruluğu, ailənin gücü, ana arının varlığı, süfrəli çərçivələrin sayı, yem ehtiyatı miqdarı yoxlanmalıdır.

Gücü zəif olan anasız arı ailələri isə arıxanadakı ana arılı zəif ailə ilə birləşdirilməklə normal gücə gətirilməlidir. Yem ehtiyatı tükənən və ya normadan az yemi olan ailələrin yem ehtiyatı bərpa olunmalıdır.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Cüdo üzrə muxtar respublika birinciliyinə start verilib

***Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində cüdo üzrə yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika birinciliyinə start verilib.***

5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə keçirilən birincilikdə 80-ə yaxın idmançı tatami üzərinə çıxıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi yarış iki gün davam edəcək və 10 çəki dərəcəsində idmançılar qalib adı uğrunda mübarizə aparacaqlar.

Birinciliyin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımızın sağlamlığının möhkəmlənməsində, gənclərin fiziki inkişafında bədən tərbiyəsinin əhəmiyyətini və rolunu nəzərə alaraq 5 martın Azərbaycan Respublikasında Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunması haqqında 2005-ci il 4 mart tarixli Sərəncam imzaladığını xatırladıb.

Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də qazanılan böyük uğurları ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə müəyyənləşdirdiyi idman siyasətinin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən yeni müstəvidə davam etdirilməsinin məntiqi nəticəsi kimi səciyyələndirib.

Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı bildirib ki, idmana göstərilən dövlət qayğısı, onun inkişafı üçün yaradılan şərait ölkəmizi Avropa və dünya çempionatlarının keçirildiyi bir məkana çevirib. Artıq ölkəmiz dünyada təbii sərvətləri ilə yanaşı, həm də bir idman ölkəsi kimi tanınır. Bütün bunlar Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət edir. Bu gün Cüdo Federasiyası muxtar respublikada bu idmanın inkişafı üçün müəyyən addımlar atır. Çünki hər zaman Azərbaycan yığmasının heyətində Naxçıvan cüdoçuları öz uğurları ilə fərqlənibler.

Azərbaycan Cüdo Federasiyası Hakimlər Kollegiyasının sədri Fariz Hüseynov isə çıxışında qeyd edib ki, bu gün Naxçıvanda idmanın kütləvi hal alması üçün hər bir şərait var. Bizim məqsədimiz perspektivli cüdoçuları üzə çıxarmaq və Naxçıvan yığmasını formalaşdırmaqdır.

İki gün davam edəcək birincilikdə bu gün yarımfinal və final görüşləri keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

*Həkim məsləhəti*

# Sağlamlıq üçün bir çox faktorların heç biri su qədər əhəmiyyətli deyildir

***Everestin ən hündür zirvəsini fəth etmək üçün bir çox alpinistlər böyük ustalıq və cəsarət göstərmiş, lakin uzun illər buna nail ola bilməmişlər. Nəhayət, 1953-cü ildə Edlon Xillari və Tenzinq Norgey Böyük Britaniyanın bayrağını dünyanın ən yüksək zirvəsinə sancmışlar. Sonradan məlum olmuşdur ki, bu idmançıların hər biri gündə 12 stəkan su içirmişlər.***

Su təbiətin bizə verdiyi əvəzsiz töhfədir. Sağlamlıq üçün bir çox faktorların heç biri su qədər əhəmiyyətli deyildir. İnsanın fiziki, psixoemosional sağlamlığı çox vaxt onun sudan necə istifadə etməsindən asılıdır. Su qeyri-adi maddə olub təbiətdə çox geniş yayılmışdır. Yer üzünün 75 faizini, insan bədəninin isə 60 faizini su təşkil edir. Su elə bir möcüzədir ki, həyatı onsuz təsəvvür etmək mümkün deyil. Orqanizmdə gedən bütün proseslər – həzm, sorulma, qida maddələrinin daşınması və sair yalnız suyun iştirakı ilə həyata keçirilir. Ürəyin, qan dövranının, görmə, və eşitmə orqanlarının, həzm sisteminin normal fəaliyyəti üçün su vacibdir. Əgər orqanizmdə bədən çəkisinin 1 faizi həcmində su itkisi baş verirsə, xəbərdarlıq siqnalı olan susuzluq hissiyyatı əmələ gəlir. Hesablanmışdır ki, 75 il yaşayan insan orta hesabla 75 min 700 litr su içir. Böyrəklər hər sutkada 178 litr suyu süzməyə qabildir, bu da 800 stəkana bərabərdir. Bir gündə insan orqanizmi 2-3 litr su itirir. Ona görə də insan hər gün 2-3 litr su içməlidir. İsti havada ağır iş və idman zamanı su itkisi daha çox olur. Susuzluğun əsas səbəbi su içməmək kimi pis vərdişdir. Tərləmə, yüksək hərarətlə müşayiət olunan ishal, qanaxma ciddi susuzlaşma əmələ gətirə bilər. Uşaqlar susuzlaşmaya qarşı daha həssas olurlar. Su itkisi 2 faiz olduqda insan iştahasız olur, dözümlülüyünü itirir, qüvvəsi zəifləyir, huşun aydınlığı itir. Su itkisi 5 faiz olduqda qıcıqlanma, halsızlıq, öyümə baş verir, bəzən də huş olmur. Bu zaman çoxlu maye içilməli, tərəvəz yeyilməlidir. Orqanizmə su lazımi qədər daxil olmasa, tüpürcək vəzlərinin aktivliyi zəifləyəcək və ağızda quruluq əmələ gələcək. Bunun qarşısını almaq üçün qidalanmadan sonra su qəbul etmək lazımdır. Orqanizmə lazımi qədər maye daxil olmadıqda orqanizmin heç bir hüceyrəsi, xüsusilə beyin hüceyrəsi normal işləyə bilmir. Bu isə yorulma və düşüncə pozğunluğuna səbəb ola bilər. Bəs insan orqanizmi üçün son dərəcə xeyirli olan bu nemətdən necə istifadə olunmalıdır? Ağızda quruluq və susuzluq zamanı çoxlu su içmək lazımdır. Səhər, günorta və axşam yeməyindən 1 saat sonra 2 stəkan su içmək yaxşıdır. Yeməkdən 30 dəqiqə əvvəl də su içmək olar. Səhər yuxudan duran zaman 2 stəkan su içmək lazımdır. İsti su tez qana sorulur. Bu da mədə vəzilərinin sekresiyasını artırır, beyinin normallaşdırılmasına köməklik göstərir. Yemək vaxtı maye içmək məsləhət görülmür. Bu, mədə şirəsini durulaşdırır, həzmin zəifləməsinə səbəb olur. Şirin içkilər orqanizmdə şəkəri qaldırır, həzmi zəiflədir, yağ əmələ gətirir. Bunun müqabilində orqanizm şəkəri azaltmaq üçün əlavə insulin istehsal edir ki, bu da zəifliyə, əsməyə, tərləməyə, yorulmağa və aclıq hissinə səbəb olur. Yeməkdə olan kimyəvi əlavələr selikli qişaları qıcıqlandırır, böyrəklərin işini artırır. Bəzi sodalı içkilərdə fosfor olur ki, bu da kalsini orqanizmdən xaric edir.

Ona görə tədricən sümüklər quruyur və tez sınır. Çox təəssüf ki, bizim sağlamlığımız üçün son dərəcə xeyirli olan təbiətin bu əvəzsiz töhfəsindən az istifadə edirik. Bunun əvəzində isə orqanizmin mayeyə olan tələbatını ödəmək üçün çaya üstünlük veririk. Hətta elə insanlara rast gəlmək olur ki, onlar, ümumiyyətlə, su içmirlər, yaxud çox az miqdarda su içirlər. Çayın tərkibində kofein deyilən maddə var. Kofein çaydan başqa, kofedə, kolada, şokoladda, tibbi preparatlarda olur. Kofein mədənin turşuluğunu 3 dəfə artırır. Mədə turşuluğu yuxarı olan şəxslərin çay qəbulundan sonra mədə nahiyəsində xoşagəlməz hissiyyatın yaranması, qıcqırma və mədədə göynəmənin müşahidə edilməsi bununla əlaqədardır. Odur ki, hər səhər yataqdan duran kimi 2 stəkan, səhər yeməyi ilə nahar arasında 2 stəkan, nahar ilə şam yeməyi arasında 2 stəkan və şam yeməyindən 1 saat sonra və yatmazdan 30 dəqiqə əvvəl yenə 2 stəkan su için.

**Məmmədəli ƏLƏKBƏROV**
***Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi***

# Ustad dərsləri davam etdirilir

***Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində ustad dərslərinin keçilməsi davam etdirilir.***

Dünən belə dərslər Şahbuz Şəhər Uşaq Musiqi Məktəbində keçilib. Dərslər başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparıcı məsləhətçisi Leyla Əlimərdanova bildirib ki, muxtar respublikanın bütün uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində ustad dərslərinin keçilməsi planlaşdırılıb. Məqsəd şagirdlərə musiqinin incəliklərini öyrətməkdən, müəllimlərin nəzəri və praktik təcrübəsinin artırılmasına metodik köməklik göstərməkdən ibarətdir.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Rəna Cəfərova (fortepiano ixtisası üzrə), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov (tar ixtisası üzrə), Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əbülfət Babayev (kamança ixtisası üzrə), Azərbaycan Respublikasının Əməkdar artisti Qurban Qasımov (xanəndəlik ixtisası üzrə) ustad dərsi keçiblər.

**Əli RZAYEV**


## "Naxçıvan" Universiteti kafedralarda boş olan yerləri tutmaq üçün müsabiqə elan edir

**1. Azərbaycan dili və ədəbiyyat kafedrası üzrə:**
dosent – 1 yer (tam ştat)
baş müəllim – 1 yer (tam ştat)

**2. İqtisadiyyat kafedrası üzrə:**
dosent – 1 yer (tam ştat)
baş müəllim – 2 yer (tam ştat)

**3. Riyaziyyat və informatika kafedrası üzrə:**
baş müəllim – 2 yer (tam ştat və 0,5 ştat)

**4. Xarici dillər kafedrası üzrə:**
baş müəllim – 3 yer (tam ştat)

**5. İdarəetmə kafedrası üzrə:**
baş müəllim – 1 yer (tam ştat)

**6. Təbiət elmləri kafedrası üzrə:**
baş müəllim – 2 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətinə təqdim edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana göndərməlidirlər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi, "Naxçıvan" Universiteti***
***Telefon: 545-07-45***
***REKTORLUQ***



***İtmişdir***

Şərur rayonunun Düdəngə kənd sakini Sadiqov Məhərrəm İsa oğlunun adına verilmiş JN-961[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Mahmudoba kənd sakini Sadıqlı Kənan Malik oğlunun adına verilmiş 0058256 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Külüs kənd sakini Canbaxışov Bəylər Canbaxış oğlunun adına verilmiş JN-081[A] inventar nömrəli, 10500068 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



**ŞƏRQ*qapısı***

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Rauf Əliyev**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 191**